# Pakistan daim Azərbaycana dəstək verərək, qardaşlıq örnəyi nümayiş etdirib

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəflə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan spiker Sahibə Qafarova qeyd edib ki, ortaq dini və mədəni dəyərlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəm bazasını təşkil edir. Gələn ay Azərbaycan və Pakistan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü tamam olur. Bu illər ərzində münasibətlərimiz uğurlu inkişaf yolu keçib.

Azərbaycan və Pakistanın beynəlxalq və regional təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran spiker Sahibə Qafarova bildirib ki, parlamentlərimiz arasında qarşılıqlı fəaliyyət dövlətlərarası əlaqələrin inkişafına töhfələr verir. Bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Milli Məclisin Sədri ötən il Pakistan İslam Respublikasına səfərini, həmçinin Azərbaycan, Türkiyə və Pakistan spikerlərinin Bakıda keçirilən birinci üçtərəfli görüşünü məmnunluqla xatırladaraq qeyd edib ki, bu tədbirlər və görüşlər ölkələrimiz və qanunverici orqanlarımız arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm zəfərdən və münaqişənin həllindən sonra regionda yeni yaranmış vəziyyət haqqında məlumat verən Milli Məclisin Sədri xüsusilə qeyd edib ki, istər Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 ilə yaxın dövr, istərsə də Vətən müharibəsi dövründə Pakistan daim Azərbaycana dəstək verərək, qardaşlıq örnəyi nümayiş etdirmişdir. Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə böyük bərpa və quruculuq işləri həyata keçirir.

Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəf göstərilən yüksək qonaqpərvərliyə və tədbirdə iştiraka dəvətə görə minnətdarlığını bildirib. O, Azərbaycanın Pakistan üçün etibarlı dost və qardaş ölkə olduğunu, ölkəmizlə münasibətlərin inkişafına daim xüsusi önəm verdiklərini qeyd edib. O, Milli Assambleyanın Sədri kimi, ilk səfərini Azərbaycana etdiyini, ölkəmizin sürətli inkişafının təqdir olunduğunu, paytaxt Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu diqqətə çatdırıb. Raca Pərviz Əşrəf İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının yüksək səviyyədə təşkilinə görə Azərbaycan Milli Məclisinə təbrikini ifadə edib.

O, parlament diplomatiyasının beynəlxalq münasibətlərdə mühüm rolunu qeyd edərək, Pakistan Milli Assambleyasının Azərbaycan Milli Məclisi ilə əlaqələrin daha da dərinləşməsində maraqlı olduğunu bildirib, ikitərəfli əməkdaşlıq və beynəlxalq təşkilatlarda birgə fəaliyyətin önəmini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-18 may.- S.2.